# Qüdrətli ordumuz daim güclənir



## Azərbaycan-Türkiyə birgə hərbi təlimləri sarsılmaz birliyimizi, qardaşlığımızı nümayiş etdirir

**Türkiyə və Azərbaycan sadəcə dost və qardaş ölkələr deyil, həm də strateji müttəfiqlərdir. Bu müttəfiqliyin ən önəmli tərəfi də məhz hərbi sahədə əməkdaşlığın təmin edilməsidir. Belə ki, Şuşa Bəyannaməsində müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Möhtərəm dövlət başçımızın hər zaman dediyi kimi, artıq bütün dünya bilməlidir ki, Azərbaycan və Türkiyə hər zaman bir yerdə olacaq, bir-birinin təhlükəsizliyini təmin edəcək. Necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.**

Artıq iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi öz nəticələrini verir. Bu isə, birmənalı olaraq, bütün Türk dünyasının maraqlarına cavab verən və regional təhlükəsizliyin təmin olunmasında önə çıxan çox vacib məqamdır.

Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birbaşa dəstəyi ilə ölkələrimizin hərbi qurumları arasında hər il imzalanan ikitərəfli fəaliyyət planına əsasən, Quru Qoşunları, Hərbi Hava Qüvvələri və digər qoşun növlərinin birgə keçirdiyi döyüş atışlı hərbi təlimlər, yüksək səviyyəli hərbi nümayəndələrin qarşılıqlı səfərləri, o cümlədən hərbi, hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi mərhələli surətdə həyata keçirilir. Bu qəbildən olan Azərbaycan-Türkiyə yüksək səviyyəli hərbi dialoq prosesinin aparılması isə hərbi-strateji imkanların uzlaşdırılması məqsədilə icra edilir. Həm hava, həm quru, həm də suda ən yüksək səviyyədə birgə hərbi təlimlər cənab İlham Əliyevin 44 günlük müharibə dövründə ordu quruculuğunda türk modelinə keçməklə bağlı verdiyi bəyanatın praktik təsdiqidir. Digər tərəfdən, bu təlimlər bölgədə alçaq niyyətlərini gerçəkləşdirmək istəyənlərə Türkiyə və Azərbaycanın sarsılmaz birliyinin nümayişidir. Tarixin çətin məqamlarında hər iki dövlətin əsgəri və ordusu həmişə bir-birinə dayaq olub, düşməni silahı gücünə məhv edərək ədaləti bərqərar edib. Necə ki, əcdadlarımız düşmən üzərində zəfər çalıb, indi də Silahlı Qüvvələrimiz bu şərəfli işi layiqincə davam etdirir. Türkiyə-Azərbaycan birgə hərbi təlimləri çox əlamətdar hadisə olmaqla birliyimizi, qardaşlığımızı bir daha göstərir.

Hərbi təlimlər bir ordunun aldığı hərbi təhsilin son nəticəsi və ən üst səviyyəsidir. İki ölkə ordusunun birgə keçirdiyi təlimlər isə onlar arasında koordinasiyanın gücləndirilməsi, lazım olan anda ortaq düşmənə qarşı hərəkatı təşkil etmək üçün yerinə yetirilir. Hazırda iki ölkə arasında olan hərbi əməkdaşlıq haqqındakı müqavilələrə əsasən, Bakıda Azərbaycan və Türkiyə sualtı hücum və sualtı müdafiə qruplarının birgə təlim-məşqləri, eyni zamanda Laçında komandoların çətin relyefdə hərəkət qabiliyyətlərini və koordinasiya imkanlarını daha da inkişaf etdirmək üçün təlim, Konya şəhərində hava qüvvələrimizin ortaq təlimi və Təkirdağın Gelibolu bölgəsində "qardaş briqada" layihəsi davam edir. Bu günlər Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Qartalı-2022" beynəlxalq taktiki-uçuş təliminin növbəti mərhələsi yerinə yetirilib. Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, təlimin planına uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş heyəti şərti düşmənin hava məkanına daxil olaraq qarşıya qoyulan tapşırıqları uğurla icra edib. Həmçinin, pilotlarımız Türkiyə Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələrinin hərbi qulluqçuları ilə birlikdə mübadilə uçuşlarını həyata keçiriblər. Eləcə də Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün Türkiyə Silahlı Qüvvələrinin mütəxəssislərinin iştirakı ilə xüsusi minatəmizləmə və axtarma kursu təşkil olunub. Kurs zamanı hərbi qulluqçular xüsusi hazırlanmış mühəndis şəhərciyində minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə bacarıqlarını təkmilləşdirəcəklər. Laçında Azərbaycan-Türkiyə hərbi təlimlərini də qeyd etmək olar. Təlimlərdə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları (dəniz piyadaları) və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlı qüvvələri iştirak edir. Əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsi, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarını inkişaf etdirməkdir. Bununla yanaşı, təlimlərdə müasir döyüş texnikası və digər hərbi vasitələri çətin relyef şəraitində istifadəetmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilir. Naxçıvanda iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə keçirilən birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birləşmə, hissə və bölmələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsindən, eləcə də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, "Naxçıvan" Əlahiddə Əməliyyat briqadası və Naxçıvan Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələri ilə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili və idarəetmənin təmin edilməsidir. Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin "Üç Qardaş - 2021" birgə beynəlxalq hərbi təlimlərinin əhəmiyyəti də böyükdür.

Ölkələrimiz arasında siyasi təmaslarla yanaşı, müdafiə və hərbi sənaye sahələrində əməkdaşlığın intensivləşdirilməsi, keçirilən birgə təlimlər Ermənistanda hələ də revanş xülyası ilə yaşayan bəzi şovinist dairələrə ciddi xəbərdarlıqdır. Azərbaycanın iqtisadi-hərbi, demoqrafik potensialı, eləcə də Türkiyə ilə hərbi-strateji müttəfiqliyi fonunda regionda sülh və sabitliyi pozmaq cəhdləri Ermənistanı daha acınacaqlı vəziyyətə sala bilər. Regionda baş verən və dünyanın da diqqətlə izlədiyi Azərbaycanla Türkiyənin birgə genişmiqyaslı təlimlər keçirməsi rəsmi Ankaranın Azərbaycana verdiyi ardıcıl dəstəklərdən biridir. Təlimlərdə iştirak edən hərbçilərin sayı, silahlar, döyüş texnikaları həm də iki ölkənin birgə gücünün nümayişidir. Daim Azərbaycanın yanında olan Türkiyə ilə birgə hərbi təlimlərin keçirilməsi iki ölkənin güc birliyinin əyani təsdiqidir. Təlimlərdə istifadə olunan silahlar vasitəsilə ölkəmizə yönəlmiş istənilən təxribatın qarşısını almaq mümkündür. Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqları azad etdiyi "Bir Vətən əməliyyatı" ilə iki ölkə arasındakı dostluq və qardaşlığın daim möhkəmləndiyini ifadə edib, "iki dövlət, bir millət" anlayışı ilə hərəkət etməyə davam etdiklərini bildirib. Türkiyənin Azərbaycana dəstəyinin keçmişdə olduğu kimi, bundan sonra da artacağını bildirən nazir hərbi təlimlərin də davam edəcəyini bildirib. Azərbaycan Prezidenti İlham Əliyev, "Bayraktar" zərbə PUA-ları istehsal edən türk şirkəti olan "Baykar Savunma"nın texniki direktoru Selçuk Bayraktarı "Qarabağ" ordeni ilə təltif edib. Türk mediası Selçuk Bayraktarın mükafatlandırılmasına toxunaraq şirkətin istehsal etdiyi PUA-ların müharibədə həlledici rol oynadığını yazıb.

Hazırda Şuşa Bəyannaməsinin tələblərinə əsasən Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində çox vacib işlər görülür. Region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyənin birgə təşəbbüsləri yüksək səviyyədə davam etdirilir. Digər sahələrdə olduğu kimi, Şuşa Bəyannaməsinin bəndlərinə uyğun olaraq Silahlı Qüvvələrimiz arasında da hərbi təlim və təhsil sahəsində əməkdaşlığımız sürətlə inkişaf etdirilir. Yenilməz, müzəffər ordumuzun, zabitlərimizin Qarabağ müharibəsi zamanı həyata keçirdikləri döyüş taktikası bir çox ölkələrin hərbi məktəblərində dərsliklərə salınaraq təlim kimi keçirilir, öyrənilir.

Bu gün ordumuz müasir texnika ilə təchiz olunur, ciddi təlimlər keçirilir. Hərbçilərin döyüş potensialı gücləndirilir. Azərbaycan zavodlarında hərbi təyinatlı məhsullar hazırlanır. Ölkəmizdə hazırlanan bu texnika və silah-sursat ordumuzu təchiz edir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin göstərişi ilə ordumuzda Azərbaycan üçün yenilik olan Komando briqadaları yaradılıb. Xüsusi hazırlıq görmüş bu briqadalar istənilən hərbi vəzifəni yerinə yetirməyə qadirdirlər. Güclü Azərbaycan ordusu gündən-günə daha da güclənir, Vətənimizi göz bəbəyi kimi qoruyur.

**Mustafa KAMAL,**
**"Respublika".**